ədəbiyyat QƏZETİ



## Əhməd Qəşəmoğlu

### Bu qəfil sevda

Mən bu qəfil sevdaya
baxıram ürkə-ürkə.
Bu, Allahdan bir paymı,
ya imtahandı, bəlkə?

Dörd bir yanda duman var,
gün çıxmağa güman var.
Darıxma, sınma könlüm
hələ öndə zaman var.

Göy üzündə bir şəfəq
nəsə söyləyir mənə.
Nə gözəl işıq yağır
İlahi, kədərimə...

Orda hönkürən nəğmə,
kimi ağlayır elə?
O nəğmədə nə səsdir
nə deyir gülə-gülə?

Alma mənim canımı,
alma, nisgilim, alma.
Ömrümdəki soyuğu
salma, yadıma salma.

Mən bu qəfil sevdaya
baxıram ürkə-ürkə,
bu, Allahdan bir paymı,
ya imtahandı, bəlkə?

### Mənə fikir vermə, dedin

Mənə fikir vermə, dedin
mümkünü yoxsa, nə edim?
Sən mənə kimsən, bilmədin...
bu əhvalla biləmməzsən.

Hər sözdə kölgə axtarma,
naşı-naşı məni qırma,
dar ağacına qaldırma
ilgək salma, açammazsan.

Sızlayır qəlbim dərini,
çox aradım sözlərini,
sən kecmişin izlərini
ömrümüzdən yığammazsan.

Mən də bir qəlbi qırığam,
bir bax, ta sarıq-sarığam,
sən gülüstan, mənsə dağam -
gəl, sinəmə sıgammazsan?

Nahaq durmusan qəsdimə,
şeri cicək tək üstünə
səpdim... döndüm sarı simə...
çal, halımı çalammazsan...

### Yaman yubandın

Ah, niyə yubandın? yaman yubandın!
yaş ötdü, qalmadı güman... yubandın...

Səni tanıyırdım ömrüm uzunu...
dünyaya göz açdım təbəssümündə.
Özünsə, o vədə yoxdun dünyada
hələ ki, nur idin çiçək üstündə.

O nura boyanıb ömrüm, üz-gözüm
o nurdu qəlbimin binasın quran
o nurdu, dünyada sən yoxkən hələ
ruhumdan ruhun tək qalxan,
boylanan...

Mən səni axtardım ömrüm uzunu...
nəyi gözəl gördüm, sənə oxşatdım...
həyatda yox idin, qəlbimdə vardın...
hər eşq şeirimdə səni anlatdım...

ah, niyə yubandın? yaman yubandın!
yaş ötdü, qalmadı güman... yubandın...

### Mən sənin özünlə sevirəm səni...

Təkcə ürəklə sevmək nədi ki...
qəlbimin kökləndiyi
yerlə, göylə sevirəm səni...

Min illərin səsi gəlir hər yandan...
min illərin
ruhuyla sevirəm səni...

Ayağımı basdığım
hər qarış torpağın
duaları ilə sevirəm səni...

Bilirsən anamı
nə qədər sevdiyimi...
anamın baxışları ilə sevirəm səni...

Ulduzların, kəhkaşanların,
qaynayıb daşan aləmlərin
sirri ilə sevirəm səni...

...Çiçəkli ağacların üstündə
ilahi nəğmə oxuyan
ay işığıyla sevirəm səni.

Ürəyimin parçasısan,
səndən axıb gəlir üzümün nuru,
mən sənin özünlə sevirəm səni...

### Sənin gözəlliyin

Sənun gözəlliyin
sübh üzündə, alatoranda
laləli çəmənliyə bənzəyir...

Sənin gözəlliyin mənim qəlbimdə
qızılgül koludu,
həsrətlə çiçəkləyir...

Bir dağ döşündə, bir gül şehindən
axan işıq kimi
axırsan qəlbimə...

Ay işığı bir həzin mehdə
bənövşəylə oynayan tək
könlümlə oynayır
gözlərinin gülüşü...

Dünya mənə ögeylik edəndə,
ürəyimi didəndə,
küsdürəndə məni....

Sənin gözəlliyini düşünmək qədər
heç nə gəlmir harayıma...